# Məktəbəqədər yaşı dövründə "Mən" konsepsiyasının xüsusiyyətləri

**Gülnarə Həmzəbəyovna-Əlixanova**
*psixologiya üzrə fəlsəfə doktoru,*
*ADPU-nun baş müəllimi*
**E-mail:** gulnare.alixanova@mail.ru

**Rəyçilər:** psixol.ü.e.d., prof. Q.N. Qəhrəmanova,
ped..ü.f.d., dos. Q.V. Rəhimova

**Açar sözlər:** "Mən" obraz, yaş xüsusiyyətləri, müstəqillik, özünə inam, özünəməxsusluq, xeyirxahlıq, davranış, şəxsiyyət

**Ключевые слова:** «Я» образ, возрастные особенности, самостоятельность, уверенность в себе, идентичность, доброта, поведение, личность

**Key words:** "I" image, age characteristics, independence, self-confidence, self-esteem, kindness, behavior, personality

Məktəbəqədər yaş dövrü uşağın həm fiziki, həm psixoloji, həm də şəxsiyyət sahəsində inkişafının keyfiyyətcə dönüş dövrüdür. Uşağın özü haqda formalaşdırdığı dəqiq biliklər, digər insanlarla ünsiyyətdə topladığı fərdi təcrübəsinin, özü haqda bilik və qiymətləndirmənin harmonik uyğunlaşmasını təxmin edir. Əgər bu harmoniya fərdi təcrübənin zəifliyi və ya uşağın ətrafdakılarla əlverişsiz şəraitdə ünsiyyəti nəticəsində pozularsa, o zaman onun özü haqda təsəvvürləri tədricən ya artımda ya da azalmada təhrif ediləcəkdir.

Məktəbəqədər yaş dövründə uşaqda "Mən" - konsepsiyası hələ çox zəif strukturlaşdırılmışdır və daha çox plastiklyə malikdir. Valideynlərin uşaqlarla ünsiyyət monopoliyası, uşaqda yenicə vüsət alan özünüdərk onlarda "Mən" - konsepsiyasının formalaşmasının əsasının həlledici faktoru olan yönəlişliklərə gətirib çıxarır. Uşaqlıqda əsası qoyulmuş özünüqiymətləndirmə səmti insanın bütün ömrü boyu özü–özünü saxlayır və ondan imtina etmək kifayət qədər çətindir. Bu xüsusiyyət, fərdin oz iddialarının səviyyəsini aşağı salaraq, özünüqiymətləndirməni asan yüksəldə bilməsi barədə nəzəri ehtimalları şübhə altına alır (1, s. 128).

E. Eriksonun nöqteyi-nəzərinə görə, "Mən" - konsepsiyasının ikinci inkişaf mərhələsi yaş yarımlıqdan üç – dörd yaşınadək uzanır. Uşaq bu dövrdə artıq öz fərdi başlanğıcını və özünü fəaliyyətdə olan fəal məxluq kimi dərk edir. Əgər uşağın fəallığı yaşlıların gözləmələrini doğrultmursa, o zaman onların narazılıqları ilə toqquşur. Bu mərhələdə uşağın inkişafının əsas pozitiv nəticəsi – müstəqillik hissinin əldə olunmasıdır. Uşaq yaşlıların asılılığından tam azad olmağa və bəzi müstəqillikləri qazanmağa can atır, ona görə də yeməkdə, geyinməkdə, gəzintidə - təklif olunan hər hansı bir köməyi rədd edərək, hər bir şeyi özü etməyə səy göstərir.

Yaşlılar öz nöqteyi-nəzərlərində uşağın təhlükəsizliyini təmin etmək məqsədilə, eləcə də əlverişlilik və qaydalılıq mülahizələrini rəhbər tutaraq uşaq fəallığını bir çox şeylərdə məhdudlaşdırmağa çalışırlar. E. Eriksonun hesab etdiyi kimi, əgər uşaq yaşlıların tələbatlarına müqavimət göstərirsə, o zaman baş verən münaqişələr uşaqda öz gücünə və avtonomiyasına inamsızlıq hissinin təzahürünə gətirib çıxara bilər. Avtonomiya və inamsızlıq dilemması uşaqlığın bu dövrünün hakim mövqedə olan problemidir. Mövcud böhranın nə cür həll edilməsi, şəxsiyyətin sonrakı inkişafında özünü büruzə verir

Uşaqda 4 yaşından başlayaraq onun necə ola bilməsi barədə ilkin təsəvvürlər təzahür edir. Uşağın dərketmə fəaliyyəti, əsas hərəkətverici qüvvəsi hər şeyi bilmək həvəsi olan son dərəcə

enerjili və inadkar forma alır. Uşaq artıq sərbəst hərəkət etməyə və sual vermək, aldığı cavabları dərk etmək üçün kifayət qədər nitqə yiyələnir (3, s. 94).

Bu zaman valideynlərin uşaqda dərketmə fəallığını boğmamaları çox əhəmiyyətlidir. E. Erikson hesab edir ki, bu dövrün mühüm təhlükəsi uşaqda özünün fəallığı və hər şeyi bilmək hissinə görə, onda təşəbbüskarlıq hissini boğa bilən, günah hissinin təzahürü imkanıdır. R.Berns öz növbəsində valideynlərə məsləhət görür ki, özündə müsbət özünüqiymətləndirməni formalaşdırmağa səy göstərən uşağın fəallığına elə münasibət ifadə etsinlər ki, onda özünü cəzalandırıcı şüur yaranmasın.

"Mən" - konsepsiyası psixoloji yenitörəmə kimi bu hallarda aşkara çıxır:

— Uşaqda özünüqiymətləndirmə özünün hər hansı bir təkrar olunmaz xüsusiyyətlərinin təyin edilməsinə görə deyil, başqa adamlardan fərqli cəhətlərinin müəyyənləşdirilməsi nəticəsində formalaşdıqda;

— Uşaqda refleksiyaya qabiliyyət təzahür etdikdə və onda özünü başqa insanların onu qəbul etdiyi kimi dərk etmək qabiliyyəti inkişaf etdikdə;

"Mən" konsepsiyasının "kristallaşması" üçün əsas an, uşağın dilə sərbəst malik olması şərtidir. Fərdin püxtələşən hisslərinin şəxsi fərdiliyi uşağın "mən" şəxs əvəzliyindən istifadə etməsinin göstəricisidir. Adətən həyatın üçüncü ilində, uşaqlar qısa cümlələr ifadə etməyə başlayanda, hər – hansı bir hərəkəti yerinə yetirərkən onu təsvir edirlər. Məsələn, uşaq stulun üzərinə çıxarkən deyir: "Mən otururam" və sairə (4, s. 203).

Uşaq hələ danışmağa başlamamışdan əvvəl, öz adını bilir və ona reaksiya verir. Daha sonra ad onun "Mən" obrazına daxil olur və özünüaktuallaşdırma vasitəsi kimi istifadə olunur. Uşaq "sən kimsən?" sualına öz adını elan edir. O, çox vaxt öz adının düzgün ifadə olunmamasına qarşı qəzəblənir və düzgün müraciətə nail olur. Ad uşağı fərdiləşdirir və eyni vaxtda o, öz adının tərkibinin başqa tərkib məzmunları ilə identifikasiya edir. Bəzən uşaqların qəşəng səslənən və nadir adlar xoşlarına gəlir və bəzən isə öz adının digərinin adına qəti uyğunlaşmaması, uşağı şəxsi adından imtina etməyə və başqa adla təqdim olunmağa məcbur edir.

Öz adını qoruma və ya əksinə olaraq münasib adın axtarışı, artıq mövcud olan "Mən" obrazın strukturlaşmasının fəal dinamikasından xəbər verir. Uşaq adətən onun adının onun özünü simvolizə etməsini tez mənimsəyir. Uşağın öz adına reaksiyası "Mən" - konsepsiyasının inkişaf xüsusiyyətlərinin inanılmış göstəricisidir. Əgər uşağa öz adı xoş gəlirsə, o adətən özü – özünə xoş gəlir və yaxud da əksinə olur (2, s. 89).

R.Beris adın rolunu və "Mən" konsepsiyasında inkişafın adlandırılması hipotezini irəli sürür. Uşağın özünüdərki özünü başqalarından fərqləndirməyə əsaslanır. "Mən"in sosial obyekt kimi yaranmasında ən başlıcası onun identifikasiyasıdır. Uşağı verbal olaraq başqalarının qeyd etməsi, yeni bir "Mən və mənim adım" dərketmə aspektini müəyyənləşdirir. Yaşlıların uşaqlıqda verdikləri bütün keyfiyyətli və ya fərqləndirici, rəğbətləndirici və məzəmmətedici adlar uşağın özünüifadəsində "göstərici" effekt əmələ gətirir. Beləliklə, uşağa "dəcəl", "ağıllı" özünəməxsusluğu ilə müraciət, onda müvafiq "Mən" obraz yaradacaq və uşaq onun həqiqiliyini "dəstəkləməyə" səy göstərəcəkdir. Başqa cür birinciyə müvafiq olmayan "xəsis" kimi adlandırma, uşağın bu cür uyğunsuzluqla barışa bilməməsi, onda açıq etiraz hissi yaradacaqdır.

Məşhur "İnkişafın psixologiyası" kitabının müəllifi S.Krayq göstərir ki, insanın özü haqqında təsəvvürləri, hətta uşaq vaxtında da uzlaşdırılmış olmalıdır (bir-birinə zidd olmayan), əks halda şəxsiyyətin fraqmentləşməsi baş verəcəkdir və insan rolların qarışmasından əziyyət çəkəcəkdir.

Uşaq 3-4 yaş üçün artıq özünün müəyyən cinsə mənsubiyyətini bilir və onu əhatə edən insanların cinsini, uşaqlar çox vaxt cinsi mənsubiyyəti təsadüfi zahiri əlamətlərlə - geyim və saç

tipinə görə assosasiya etsələr də, səlist ayırırlar. Uşaqda bu yaşda öz cinsi identifikasiyasına nisbətdə müəyyən çətinliklər olur. Bu uşağın öz əzələlik/feministlik dərəcəsini qiymətləndirməsində uşağın cins - rol üstünlüyünün qeyri – müəyyənliyinin çətinləşməsində təzahür edir və "Sən daha artıq kim olmaq istəyərdin – oğlan və ya qız?" suallarına cavab yolu ilə və davranış "eksperimentlərində" uşağın qadın və ya kişi rolunu seçməyə məcbur olduqda müəyyənləşdirilir (5, s. 235).

Cinsi özünüidentikliyin cinsi psixoloji diferensiasiyası və formalaşması nisbətində üç alternativ nəzəriyyə mövcuddur. İdentifikasiya nəzəriyyəsində - psixoanaloji əsası olan, emosiya və təqlid etmənin rolu qeyd edilir. Uşağın öz cinsinin nümayəndələrinin davranışını şüursuz olaraq təqlid etməsi təxmin edilir.

Cinsi tipləşdirmə nəzəriyyəsi sosial öyrənmə konsepsiyasına əsaslanır və cinsi identifikasiyanı möhkəmləndirmə fəaliyyətində aydınlaşdırır: valideynlər və başqa insanlar oğlanları davranışına görə oğlan hərəkətləri etdikdə rəğbətləndirirlər, lakin onlar özlərini qız kimi aparanda isə mühakiməyə məruz qalırlar. Qızlar da öz növbəsində feminal davranışa görə müsbət, əzələ davranışına görə isə mənfi rəy qazanırlar. Cinsi tipləşdirmə zamanı əvvəlcə uşaq cins üzrə differensasiya olunan davranış nümunələrini fərqləndirməyi öyrənir. Daha sonra fərdi təcrübə yeni situasiyalar üzərində ümumiləşdirilir və nəhayət öz cinsinə uyğun davranış qaydaları yerinə yetirilir. Özünə qadağa etmə nəzəriyyəsi isə koqnitiv baxışlarla əlaqəlidir və bu prosesin dərketmə tərəfi qeyd edilir: uşaq əvvəlcə cinsi identifikliyini, özünün "oğlan" və ya "qız" olduğunu mənimsəyir, sonra isə özünü müvafiq cinsi mənsubiyyətə uyğun aparmağa çalışır.

Erkən uşaqlıq mərhələsində ilkin cinsi identifikasiya baş verir: uşaq artıq başa düşür ki, cins geyimin, iş növünün və ya digər zahiri əlamətlərin növbələşməsi ilə tədricən dəyişməyəcək. 4 yaşdan yuxarı olan uşaqlar ətrafdakıların yalnız cinsini düzgün müəyyənləşdirməklə yanaşı bilirlər ki, müxtəlif tələbatlar insana cinsindən asılı olaraq elan edilir.

Oyun uşağın "Mən" obrazının "perspektiv" süjetli və rollu mücəssiməsidir, ona görə də onun özünəqiymətləndirməsinin oyunda təzahür etdiyini demək olar. Oyunda eyni zamanda uşağın özünütənzimə hazırlığı ifadə olunur, özünəqiymətləndirmənin nizamlayıcı funksiyası inkişaf edir (6, s. 114).

İ.İ.Çesnokovaya görə, özünüqiymətləndirmə, uşağın qiymətləndirici fəaliyyət şəraitində yalnız obyekt deyil, subyekt kimi formalaşdığı, uşaq şəxsiyyətinin motivasiya – tələbat sferasının mühüm halqasıdır. Bu müəllifin nöqteyi-nəzərinə görə, hər hansı bir fəaliyyət prosesində şəxsiyyətin özünə münasibətin formalaşmasına özünüqiymətləndirmə və şəxsi müvəffəqiyyətlər daha zəruri təsir göstərir.

Bundan başqa, şəxsiyyətin özünüqiymətləndirməsi prosesində öz şəxsi qiymətini cəmiyyətin verdiyi qiymət və şəxsiyyət səbəbləri üçün müəyyən qədər əhəmiyyətli olan kollektiv üzvlərinin verdiyi qiymətlə fərqləndirməsi baş verir.

L.İ.Umanetc uşaqların oyun qrupunun qiymətləndirilməsinin təsiri altında təzahür edən oyun rollarını seçmələrini və onların bu və ya digər rolu yerinə yetirmək iddialarının dəyişilməsini müşahidə etmişdir. İddiaların ən yüksək səviyyəsi uşaqların baş rolların seçimi ilə cavablanırdı, orta səviyyəyə baş rol ifaçıları köməkçilərinin seçiminə, aşağı səviyyə isə sıravi rolların seçiminə müvafiq gəlirdi.

Şəxsiyyətin tələbat – motivasiya sferası şəxsiyyəti fəaliyyətə sövq edən, subyektdə müəyyən məqsədlə fəallıq əmələ gətirən şəxsiyyət aspekti və şəxsiyyət vəziyyətidir. Şəxsiyyətin motivasiya – tələbat sferası özündə maraqları, meylləri, emosiyaları, yönəlişlikləri və idealları birləşdirir.

**Məqalənin aktuallığı.** Aktuallığ məktəbəqədər yaşlı uşaqların "Mən" obrazının formalaş-

masında ailədaxili münasibətlərinə dair düzgün iş formalarının və istiqamətlərinin araşdırılıb seçilməsi ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik isə cəmiyyətin sürətlə inkişafı və insan amilinə yeni tərzdə yanaşmanın bir məqsəd kimi qarşıya qoyulması amilinə xüsusi diqqət yetirilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali, orta ixtisas məktəblərinin tələbə və magistrantları istifadə edə bilər.

## Ədəbiyyat

1. Qədirov Ə. Yaş psixologiyası Bakı: Maarif, 2006, 610 s.
2. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 200 s.
3. Zamanov A., Əliyeva H., Əlixanova G. Psixoloji xidmətin diadası. Bakı: Elm və təhsil, 2012, 240 s.
4. Хухлаева О.В. Психология развития и возрастная психология/М.: Юрайт, 2013, 367 с.
5. Широкова Г. Справочник дошкольного психолога. Ростов н/Д: Феникс, 2007, 316 с.
6. Кон И.С. Проблема «Я» в психологии//Самара:«БАХРАХ-М», 2007, 346 с.

**Г.Г. Алиханова**

## Особенности концепции «Я» в дошкольном возрастном периоде

## Резюме

В дошкольном возрасте понятие «Я» у ребенка все еще очень пластично и плохо структурировано. Монополия общения родителей с детьми приводит к ориентациям, которые являются решающим фактором в формировании концепции «Я» у новообразованного ребенка.

Чувство собственного достоинства, сосредоточенное в детстве, само обеспечивается на протяжении всей жизни человека, и от него достаточно сложно отказаться.

**G.K. Alikhanova**

## The conception of the concept of "I" in the emerging period

## Summary

In the preschool age, the concept of “I” in a child is still very poorly structured and more plastic. The monopoly of parents' communication with children leads to orientations, which are the decisive factor in the formation of the concept of "I" in the newly developed child.

The self-esteem centered in childhood is self-sustaining throughout the life of a person, and it is difficult enough to give up.

**Redaksiyaya daxil olub:** 14.02.2020